*Abbasova Tamilla Cəlal qızı,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dövlət İqtisad Universiteti,*
*Email: tamilla_abbasova62@mail.ru*

# RƏQABƏTQABİLİYYƏTLİ İNNOVATİV İNKİŞAFDA İNSAN KAPİTALININ ROLU

"Müasir dünya təsərrüfatının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir". Bu fikri Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Azərbaycan 2020: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər" haqqında sərəncamında söyləmişdir. Bu gün ölkəmizin davamlı inkişafını təmin etmək üçün Azərbaycanda bütün zəruri amillər mövcuddur və bu amillərin müəyyən edilməsi aktual bir məsələ kimi qarşıya qoyulmuşdur. Dünyada gedən siyasi-iqtisadi proseslər ölkənin davamlı inkişafında rəqabətliliyin və sosial rifahın başlıca amili olan insan kapitalının və innovasiyanın inkişafına böyük önəm verir.

Davamlı inkişaf üçün iqtisadiyyat dayanıqlı olmalı və müasir texnoloji istehsal

qurulmalı, iqtisadi artım və ekoloji mühit arasında tarazlıq qorunmalıdır. İnsanların maddi rifahının daha da yaxşılaşması, rəqabətli iqtisadiyyatın formalaşması, innovasiyanın, insan kapitalının əhəmiyyətli dərəcədə inkişaf etməsi, həmçinin yaşıl texnologiyaların dərin tətbiqi bütün bunlar yeni strateji baxış tələb edir. Hazırki dövrdə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin davamlı inkişafının təmin edilməsi bir çox tələbləri qarşıya qoyur:

- iqtisadi sferada innovasiyalara əsaslanan inkişaf istiqamətlərinin müəyyən edilməsi;
- insan kapitalının formalaşması və intellektual potensialdan səmərəli istifadə edilməsi;
- davamlı inkişaf prinsiplərinin tədricən tətbiqi strategiyasının hazırlanması;
- ölkədə mövcud olan təbii-iqtisadi və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması;
- milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyası;
- milli maraqlar və strateji planlaşmanın vəhdəti;
- vətəndaşların sağlam həyat tərzinin təmin edilməsi;
- iqtisadiyyatın idarə olunmasında strateji planlaşmanın düzgün aparılması.

“Rəqabətli İnsan kapitalı və Müasir İnnovasiyalar Məkanı” yaratmaq ölkə üçün qarşıdakı on illikdə milli prioritetlərin üçüncü hissəsində göstərilən əsas vəzifələrdən biridir. Bu gün ölkələrarası rəqabətin daha da sərtləşməsi özünü dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklərlə büruzə verir. Belə ki, artıq qədəm qoyduğumuz dördüncü sənaye inqilabında baş verən dəyişikliklər onun mürəkkəbliyi baxımından bəşəriyyətin bütün əvvəlki təcrübələrinin heç birinə bənzəmir. Çünki qarşıda bizi nanotexnologiya, biotexnologiya, süni intellekt, robot avtomobillər, qabaqcıl robot texnikaları, yeni materiallar, genlərin redaktə edilməsi, əşyaların interneti (İOT – internet of things) və s. gözləyir.

Dünya iqtisadi forumunun qurucusu, professor Klaus Şvab dördüncü sənaye inqilabı haqqında öz fikrini belə söyləmişdir: “Bundan öncəki sənaye inqilablarından tamamilə fərqli olaraq bu inqilab xətti deyil, eksponent sürətlə inkişaf edir. Bu, hazırda yaşadığımız çoxtərəfli, dərin qarşılıqlı əlaqəli bir dünyanın və yeni texnologiyaların davamlı şəkildə daha yeni, daha bacarıqlı texnologiyalara yol açmasının nəticəsidir.” Təsadüfi deyildir ki, hazırda Dünya Bankı tərəfindən irəli sürülən “sağ qal, öyrən, inkişaf et” şüarı insan kapitalının inkişafı sahəsindəki fəaliyyətini sürətləndirir və strateji hədəfləri formalaşdırmaqla yanaşı, bu sahədəki mövcud hədəfləri müəyyən edir. Hazırda dövlət başçısının ən böyük amalı xalq üçün, əməksevər insanlar üçün, ümumiyyətlə, hamı üçün ölkədə ən böyük quruculuq işləri aparmaq, qurub yaratmaq, insanları xoş günlərə, daha firavan həyata yetirməkdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 2016-cı ildə Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun giriş nitqində “bizim məqsədimiz Azərbaycan üçün qara qızılı insan kapitalına çevirməkdir” fikrini söyləmişdir. Qeyd edək ki, insanların yaşadıqları, bir ömür boyu topladıqları biliklər, yaşadıqları həyat tərzi, bacarıqları, fəaliyyət göstərdikləri cəmiyyətdəki potensial – real həyat bütün bunlar insan kapitalını özündə birləşdirir. İnklüziv cəmiyyətin yaradılması üçün vacib olan əsas şərtlər vardır. Bu şərtlər əsasən insanların düzgün və sağlam qidalanması, tibbi yardımlarla vaxtlı-vaxtında təmin olunması, təhsilin səviyyə-

sinin daha keyfiyyətli olması, iş yerlərini və bacarıqlarına investisiyaların yatırılması insan kapitalının inkişafına dəstək verir və bu da müasir inklüziv cəmiyyətlərin yaradılması üçün vacib sayılır. Bu gün dünyanın ən çox inkişaf etmiş ölkələrində müasir və güclü tələblərə cavab verən yüksək rəqabətqabiliyyətli təcrübə və bacarıqlara malik olmalarının səbəblərini təhlil edərkən məlum olur ki, bu ölkələr güclü insan kapitalının formalaşdırılması hesabına uğur qazanırlar. Dünyanın ən görkəmli iqtisadçılarından biri hesab olunan alman professoru Q.Hansman hesab edir ki, "əgər hər bir ölkə bu gün keyfiyyətli insan, keyfiyyətli texnologiya, keyfiyyətli istehsal formuluna düzgün riayət etsə, o zaman həmin ölkə əsl inkişaf zirvəsini fəth edə bilər". Son illərdə Azərbaycanda baş verən proseslər, müxtəlif sahələrdə həyata keçirilən islahatlar, ölkənin daimi inkişafı üçün gələcəyə sərmayə əhəmiyyəti daşıyan layihələr Azərbaycanın günü-gündən inkişaf etməsini gözlə görüləcək qədər sürətli hala gətirib çıxarır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizə rəhbərliyinin ilk illərindən təbii resursların yaratdığı imkanların insan kapitalına çevrilməsini əsas strateji hədəflərdən biri kimi müəyyənləşdirib. Son onilliklərdə həyata keçirilən təhsil islahatları, innovasiya ekosisteminin formalaşdırılmasına yönəlmiş ardıcıl tədbirlər, biliyin, texnoloji qabiliyyət və bacarıqların cəmiyyətimizdə bir meyara çevrilməsi bu hədəfə doğru əldə etdiyimiz ciddi nailiyyətlərdir.

Bu məqam dövlət rəhbərimizin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də öz əksini tapıb. Azərbaycanın rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı olması yaxın onillik üzrə beş əsas prioritetdən biri kimi müəyyənləşdirilib.

Rəqabətli insan kapitalı və müasir innovasiyalara bu qədər böyük önəm verilməsi son dövrlərdə dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklərlə əsaslandırılır. Həqiqətən, bu dəyişikliklər müasir dünyamızın reallığıdır. Əslində, insan həyatında hər zaman hansısa dəyişikliklər baş verir. Zaman keçdikcə mühit, yaşayış şərtləri, texnologiyalar, tərz və üsullar dəyişir. Amma bəşəriyyət indiki qədər sürətli və çoxşaxəli dəyişiklikləri, yəqin ki, tarixinin heç bir dövründə yaşamayıb. Müasir texnologiyalar demək olar ki, bütün dünyanı yeniləyir. Belə bir köklü dəyişiklik şəraitində isə bir tərəfdən ölkələrarası rəqabət daha da güclənir, digər tərəfdən rəqabət şərtləri də dəyişir.

Azərbaycanda insan kapitalının inkişafına yönəldilən investisiyaların, şübhəsiz ki, bir çox üstünlükləri vardır. Bu, ilk növbədə iqtisadiyyatın bütün sahələrinə yeni texnika və texnologiyaların gətirilməsinin işçi qüvvəsi ilə təmin olunmasına şərait yaradır, digər tərəfdən isə bilik iqtisadiyyatını formalaşdırmaqla yeni ideyaların praktikaya tətbiqinə yol açır. Məhz buna görə də dünyada artan rəqabətə davam gətirə bilmək üçün aşağıda göstərilən üç məqsədə nail olunmalıdır: - XXI əsrin tələblərinə uyğun təhsil; - yaradıcı və innovativ cəmiyyət; - vətəndaşların sağlam həyat tərzi. İnsan kapitalının davamlı şəkildə inkişafına, həmçinin ömür boyu təhsilə xüsusi diqqət yetirilməlidir. Bir ölkənin gələcəyi, gələcək potensialının güclənməsi gənc nəsil olmadan düşünmək belə mümkün deyil. Buna görə də erkən və məktəbəqədər təhsilin əhatə dairəsi daha da genişlənməli, gənc nəslin inkişafına – yəni insan kapitalına sərmayə qoyulmalıdır. Çünki məhz insan kapitalına qoyulan sərmayə gələcəyə yönəlmiş ən yüksək, ən effektli, ən düzgün yatırım sayılır. Təsadüfi deyil ki, Azərbaycan gəncləri dünyanın inkişaf etmiş ölkələrinin ən yaxşı universitetlərində dövlət hesabına təhsil

almaqdadırlar. Hər il yüzlərlə gənc bu imkanı əldə edə bilirlər. Dünyanın inkişaf etmiş, qabaqcıl texnologiyalarına yiyələnərək, qabaqcıl elm adamlarından və universitetlərdən dərs alaraq ölkəmizin gözəl gələcəyini inşa etmək üçün əzmlə çalışırlar. Görkəmli iqtisadçı alim Alfred Marşalın dili ilə desək, "ən dəyərli kapital insana yatırılan kapitaldır." Azərbaycanın beynəlxalq rəqabətliliyini təmin etmək üçün dayanıqlı inkişafı səciyyələndirən insan kapitalının inkişafını elm-təhsilə, səhiyyəyə daha çox investisiya qoyulmalıdır.

İnkişaf etmiş ölkələrdə milli sərvətin əsas hissəsini insan kapitalı təşkil edir ki, bu da XXI əsri bilik iqtisadiyyatı kimi qəbul etməyə imkan verir, belə ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri təhsil əsri elan etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi insan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbii resurslar hesabına yox, intellektual potensiala, yeni texnologiyaların icad olması tətbiqinə görə inkişaf edirlər. Biz də bu yolu seçməliyik!

Bu gün respublikamızda sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə qəbul edilən çoxsaylı dövlət proqramları strategiyaların reallaşmasında, bu istiqamətdə genişmiqyaslı tədbirlərin həyata keçirilməsində, ümumilikdə, ölkədə sosial siyasətin maliyyələşdirilməsində dövlət büdcəsindən ayrılan vəsaitlərin rolu daha çox hiss olunur.

Avrasiya İnsan İnkişafı Fondunun dünya ölkələrinin inkişafında insan amilinə dair hazırladığı hesabatda qeyd olunur ki, iqtisadiyyatda insan kapitalı ona yönələn investisiyanın həcmi ilə ölçülür. Dünyada iqtisadi artımın 16 faizi fiziki kapital, 20 faizi təbii ehtiyatlar, 64 faizi isə insan kapitalı hesabına əldə olunub. İnsan kapitalına yönələn xərclərin artması nəticədə həmin ölkənin gələcəkdə daha da inkişaf etməsinə səbəb olacaqdır.

Prezident İlham Əliyev Davos Forumunda ölkəmizin milli maraqlarının təminatı eyni zamanda Azərbaycanın vahid və dayanıqlı dünyada rolu haqqında dərin məzmunlu nitq söyləmişdir. O, bildirmişdir ki, yaxın onilliklərdə qabaqcıl texnologiyaların və süni intellektin üstünlüklərindən istifadə hər bir ölkənin sürətli və dayanıqlı inkişafının əsasını təşkil edəcək. Süni intellekt, robot texnika, proseslərin avtomatlaşdırılması, operativ yaddaşda blokceynlərin və bir növ başqa iri məlumatların hesablanması təhlili kimi inkişaf etməkdə olan mütərəqqi texnologiyalar, yeni intellektual ekosistemin yaranmasına gətirib çıxaracaq ki, bu da az xərclə əlavə rəqabət üstünlüklərinə malik olmağa zəmin yaradacaq. Azərbaycanda görülən işlər dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsində olmalıdır. Biz o səviyyəyə qalxmalıyıq, biz ona yaxınlaşmışıq, bir çox hallarda lap yaxınlaşmışıq. Amma hələ böyük işlər görülməlidir. Ölkəmizdə bütün işlər – iqtisadiyyat, sosial siyasət və bütün başqa məsələlər müasir səviyyədə olmalıdır.

Biz bilirik ki, bilik iqtisadiyyatının inkişafında universitetlərin də rolu böyükdür. Belə ki, Dünya Bankının ekspertləri bunu araşdırmış və müntəzəm inkişafın təmin olunmasında universitetlərin rolunu – dövrün tələblərinə cavab verən güclü kadr ehtiyatlarının yaradılmasında görmüşlər. Hər bir dövlətin iqtisadi inkişafı elmin inkişafı ilə birbaşa qarşılıqlı surətdə əlaqəlidir. Yeni mərhələdə elmi-texniki tərəqqinin fərqləndirici cəhəti dünya standartlarına cavab verən yeni, daha keyfiyyətli elmtutumlu məhsulun istehsalına imkan verən mütərəqqi texnoloji proseslərə və çevik istehsalata

sürətli keçiddir. Dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaqla Azərbaycanın texnoloji ixrac məkanına çevrilməsi üçün perspektivlər yaradılacaq.

Onu da qeyd etmək vacibdir ki, bu gün dövlətin inkişafının əsas stimulu sərvətlərin bölgüsü deyil, bu sərvətlərin yüksək səviyyədə insan kapitalına çevrilməsidir. Son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elm sahəsinə diqqət yetirməsi, bu sahədə aparılan islahatlar ümid verir ki, yaxın gələcəkdə Azərbaycan elmtutumlu məhsulların istehsalında da aparıcı mövqelərə çıxacaq.

## İstifadə olunmuş ədəbiyyat:


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər. Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 2 fevral 2021-ci il.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər. Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 2 fevral 2021-ci il.
3. BMT-nin Sivilizasiyalar Alyansının 7-ci qlobal forumu. Azərbaycan 26 aprel 2016-cı il.
4. İradə Əliyeva. Rəqabətli insan kapitalı və müasir innovasiyalar gələcəyin açarıdır. Məqalə, “Azərbaycan” qəzeti. 23 may 2021-ci il.
5. Klaus Şvab. “Dördüncü sənaye inqilabı” tərcümə. Elmi redaktor i.e.d., prof.Ə.Muradov, tərcüməçilər i.ü.f.d., dos.E.Bağırzadə, iqtisadiyyat üzrə dissertant T.Əlizadə. “İqtisad Universiteti” nəşriyyatı. 4 fevral 2020-ci il. səh.13.
6. Natiq Məmmədov. Azərbaycanda insan kapitalını necə inkişaf etdirməli? Təkliflər. 4 fevral 2020-ci il.
7. Vahid Novruzov Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor. “Azərbaycan” qəzeti. Prezident İlham Əliyev bu il də Davos Forumundan “ölkəmizin milli maraqlarının təminatı üçün maksimum istifadə etdi” məqalə. 20 may 2021-ci il.